**"İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Lotereyalar haqqında", "İpoteka haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 13-cü, 15-ci, 26-cı və 27-ci bəndlərini rəhbər tutaraq, "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1143-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, 11, maddə 950; 2014, 10, maddə 1161; 2015, 11, maddə 1261; 2016, 3, maddə 412, 4, maddə 642, 12, maddə 2002; 2017, 11, maddə 1952, 12, I kitab, maddə 2225; 2018, 7, I kitab, maddə 1394 ) aşağıdakı məzmunda 2.3-1-ci maddə əlavə edilsin:

"2.3-1. Ələt azad iqtisadi zonasında investisiya fondları sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**Maddə 2.** "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, 7, maddə 813; 2016, 3, maddə 411, 11, maddə 1756, 12, maddə 2003; 2017, 2, maddə 159, 5, maddə 712, 12, I kitab, maddə 2222; 2018, 5, maddə 893, 7, I kitab, maddə 1395) aşağıdakı məzmunda 2.3-cü maddə əlavə edilsin:

"2.3. Ələt azad iqtisadi zonasında qiymətli kağızlar bazarı sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**Maddə 3.** "Lotereyalar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, 5, maddə 309; 2009, 7, maddə 517; 2016, 3, maddə 422; 2017, 2, maddə 144; 2018, 2, maddə 154; Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1299-VQD nömrəli Qanunu) 1-ci maddəsinin mətni 1.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 1.2-ci maddə əlavə edilsin:

"1.2. Ələt azad iqtisadi zonasında lotereyalar sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**Maddə 4.** "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 6, maddə 461; 2007, 5, maddə 436, 11, maddə 1053; 2008, 5, maddə 348; 2009, 12, maddə 948; 2011, 7, maddə 591; 2017, 10, maddə 1773; Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1298-VQD nömrəli Qanunu) 2-ci maddəsinin mətni 2.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 2.2-ci maddə əlavə edilsin:

"2.2. Ələt azad iqtisadi zonasında ipoteka sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**Maddə 5.** "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, 3, maddə 144, 7, maddə 602; 2009, 7, maddə 517; 2011, 1, maddə 11; 2013, 12, maddə 1470; 2014, 7, maddələr 771, 779; 2015, 11, maddə 1263; 2016, 3, maddə 410, 6, maddə 976; 2017, 7, maddələr 1286, 1294, 12, I kitab, maddə 2221; 2018, 7, I kitab, maddə 1392) aşağıdakı məzmunda 2.4-cü maddə əlavə edilsin:

"2.4. Ələt azad iqtisadi zonasında sığorta sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**Maddə 6.** "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, 5, maddə 399; 2001, 12, maddə 736; 2005, 8, maddə 692, 10, maddə 872; 2006, 12, maddə 1007; 2008, 6, maddə 462, 11, maddə 960; 2011, 2, maddə 71; 2013, 12, maddə 1491; 2015, 2, maddə 73; 2016, 3, maddə 415; 2017, 5, maddə 686) 1-ci maddəsinin mətni 1.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 1.2-ci maddə əlavə edilsin:

"1.2. Ələt azad iqtisadi zonasında hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 dekabr 2018-ci il
1416-VQD